# ƏSİRLİKDƏ QALMIŞ İRƏVAN XANLIĞININ PƏMBƏK MAHALINDA ARÇUT (ARDIC) KƏNDİ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ (1941-1945-ci illər)

üçüncü çölçülük briqadasından 50 nəfər - kənd üzrə cəmi 199 nəfər. O onlardan 121 nəfəri qayıtmışdır. Qayıtmayanların sayı yuxarıda deyildiyi kimi 78 nəfər olmuşdur. Qayıdanların içərisində əlillər, cəbhəçilər və arxa cəbhənin iştirakçıları aşağıdakı kimi olmuşdur. 121 nəfərin içərisindən ön cəbhənin iştirakçıları 70 nəfər, arxa cəbhənin iştirakçıları 51 nəfər olmuşdur.

Yeri gəlmikən, cəbhədən qayıdan əlil həmyerlilərimiz müxtəlif orden və medallar da almışlar. Orden alanlar: 1) Hümbətov Mövlud Əhməd oğlu - "Qırmızı Bayraq" ordeni, 2) İsmayılov Selmixan Əsgər oğlu - "Qırmızı Ulduz" ordeni, 3) Əliyev Əli Ellaz oğlu - "Qırmızı Ulduz" ordeni, 4) İsayev Mikayıl Cəbrayıl oğlu - "Qırmızı Ulduz" ordeni, 5) Mustafayev Hüseyn Əmiraslan oğlu - "Döyüş şöhrəti" ordeni, ilə təltif olunmuşlar!!!

Hümbətov Mövlud Əhməd oğlu 4 düşmın tankını yandırmışdır. O, Kursk ətrafında minaatıcı bölməsində vuruşmuşdur. Almanlar hücuma keçir, Sovet qoşunları geri çəkilirlər, ancaq Mövlud cəbhənin önündə olduğundan geriçəkilməni görmür. Yalnız onu görür ki, düşmən tankları atəş aça-aça irəliləyir. Həmin atəş nəticəsində yoldaşı həlak olur. Mövlud tək minaları dolduraraq arasıkəsilməz halda düşmən tanklarına atəş açır, dalbadal 4 tank yandırılır. Sovet kəşfiyyat təyyarəsi havadan müşahidə edir ki, cəbhənin bir nöqtəsində atəş açılır, düşmən tankı yanır və düşmənin digər tankları geri qayıdır. Bu məlumat döyüşən ordunun komandirinə çatır, ordu yenidən əkshücuma keçir. Ordu komandiri Hümbətov Mövludun qəhrəmanlığını yüksək qiymətləndirir və ona Sovet İttifaqı Qəhrəmanl adının verilməsini təklif edir. Ancaq ordunun qərargah rəisi bu adın Hümbətov Mövludun yanında həlak olan əsgərə verilməsini təklif edir və Hümbətov Mövluda isə "Qırmızı Bayraq" ordeni təklif edilir. O, "Qırmızı Bayraq" ordeni almışdır və xəstələnmişdir. Müalicə olunduqdan sonra xəstəliyinə görə ordudan təxris edilmişdir. 1944-cü ilin yayında Mövludun ailəsinə gəlməsi haqqında xəbər yafər ön cəbhədə və arxa cəbhədə iştirak edən vətəndaşların 78 nəfəri ailəsinə qayıtmamışdır. Onların hər biri haqqında dürüst və aydın məlumatlar əldə etmək hələ də problem olaraq tədqiqatçısını gözləyir. Ancaq bəziləri haqqında onların həmyaşıdlıları, həmkarları, tanışları və dövlət tərəfindən verilən məlumatlar vardır. Bunlardan aşağıdakıları qeyd etmək olar: 1) Rəcəbov İbrahim Baba oğlu - İtaliyada partizanlıqda "İvanov" adlı Psevo adda faşistlərə qarşı partizan döyüşündə həlak olub; 2) Məmmədov Məhəmməd Mahmud oğlu - Krımda səngərdə alman təyyarələrinin bombalanması nəticəsində həlak olmuşdir. Bu zaman onun qardaşı Vətən müharibəsi veteranı Məmmədov Hümbət Mahmud oğlu yanında olmuşdur. O, deyirdi ki, başqa həlak olanlarla birlikdə qardaşımı dəfn etdik; 3) Osmanov Rəcəb Əhməd oğlu - Krımda əsir düşmüş və Fransada partizanlıq etmiş, İkinci Dünya müharibəsi qurtardıqdan sonra Vətənə gəlməmiş, Fransa vətəndaşlığını qəbul etmişdir. Bu məlumatı Arçut kəndindən onunla birlikdə olan həmkarları söyləyir. O, evli olmuşdur və 3 qız övladı vardır. Lakin onun son taleyi haqqında Hamamlı (Spitak) rayonunun Küllücə kəndindən onunla əsirlikdə olan və Ermənistana gəlmək icazəsi olan erməni qeyd edir ki, Rəcəb Fransız qadını ilə evlənmişdir və onun 2 qız övladı olmuşdur. o, xəstələnib əməliyyat keçirmişdir və vəfat etmişdir; 4) Qocayev Bəkir Oruc oğlu Xarkov şəhərində düşmən bombasından qıçının birini itirmiş və köməksiz qalmışdır. O, qan itirərək, müəmmalı şəkildə həlak olmuşdur. Məlumatı kəndimizin sakini Cinoyev Cabbar vermişdir. Bəkir ailəli idi, 5 övladı olmuşdur; 5) Əliyev Məmməd Rəsul oğlu (İrəvanın Ellər rayonundan idi, Arçut natamam orta məktəbinin direktoru işləyirdi), 1944-cü ildə Şimali Qafqazda düşmən aviobombasından həlak olmuşdur. Onun həlak olmasını Gədəbəyli həmkarı üçbucaq məktubu ilə və həm də 416-cı diviziyada diviziya bayrağının mühafizəçisi, bizim kəndli Məhərrəm müəllimə məlumat vermişdir; 6) Novruzov Rəhim Behbud oğlu - əsirlikdə qada orada övladı olmuşdur. Ancaq Vətənində bir qızı və bir oğlu vardır; 13) Məmmədov Vəli Alı oğlu - subay olmuşdur, əsir düşmüşdür, Ukraynanın Nikolayev şəhərində əsir düşərgəsində 1942-ci ilin sonunda tif xəstəliyindən vəfat etmişdir. Şahidlik edir Gədəbəy rayonundan olan və müharibədən sonra evinə qayıdan həmkarı. Bu həmkar üçbucaq məktub vasitəsilə qardaşı Məmməd müəllimə məlumat vermişdir; 14) İsgəndərov Murtuz Rəsul oğlu - Subay olmuş, ikinci səfərbərlikdə 1941-ci ilin avqust ayında orduya çağırılmışdır. Kazbek tunelindən Şimali Qafqaza onların rotası keçərkən alman təyyarələri tuneli bombarduman etmiş və Murtuz da daxil olmaqla 44 əsgər həlak olmuşdur. Məlumatı hərbi komissarlıq vermişdir; 15) Məmmədov Məhəmməd Haqverdi oğlu - subay olmuş, Şimali Qafqazda gedən döyüşlərdə yaralanmış və Gürcüstanın Qori şəhərinə gətirilmiş. Çox qan itirdiyi üçün orada vəfat etmişdir. Qəbri Qoridə əsgəri qəbirstanlığında; 16) Ələsgərov Elləz Alı oğlu - Şimali Qafqaz döyüşlərində yaralanmış, Gürcüstanın Tbiflisi şəhərinə gətirilmiş, Tbilisinin Naftulluq rayonunda hərbi qospitalda vəfat etmişdir. Onun oğlu Əli müəllim başdaşı qoymuşdur. 17) Kərbəlayev Əli Ağa oğlu - əsir düşmüş, Vətənə gəldikdən sora hərbi tribunal ona 10 il iş vermişdir. O, Vladivastokda əsir düşərgəsində qanvoy tərəfindən güllələnmişdir. Məlumatı Kirovakan hərbi komissarlığı vermişdir. Evli olmuşdur, 3 övladı vardır; 18) Əhəmədov Abdulla Şərif oğlu - əsir düşmüş və Vətənə qayıtmışdır. Sovet hərbi tribunalı ona da 10 il iş vermişdir. 1946-cı ildə Varkutskidə kömür mədənində həlak olmuşdur. Evli olmuşdur, ancaq övladı olmamışdır; 19) Əhmədov Əli Vəli oğlu - ayaqyolu xəstəliyindən vəfat etmişdir. Hərbi komissarın məlumatı. Evli olmuşdur, övladı olmamışdır; 20) Qocayev Aslan Bayram oğlu - 1940-cı ildə Polşa sərhəddində əsgəri vəzifəsini yerinə yetirərkən həlak olmuşdur. Hərbi komissarın məlumatı. Subay olmuşdur; 21) Alıyev Hacıkərim Qara oğlu - 1948-ci ildə Aşqabadda baş vermiş zəlzələdə həlak olmuşdur. Subay dir oğlu-ŞL)

KTM - Kiçik tayfalar Məmməd evi (Nənəxanım oğlu-ŞL)

KTQ - Kiçik tayfalar Qərib evi

KTA - Kiçik tayfalar Astan evi

14. KX - Koxaalılar
15. KU - Korusublar
16. QZ (F-IV) - (Qazılar, Qiymət evi)
17. QD - (Qaradallılar, Nadir evi)

18.QÜQİ - (Qaraünlü, Qaraibrahimlilər)

QÜGU - (Qaraünlü, Göyusublar)

QÜQH - (Qaraünlü, Qarahüseynli)

QÜQƏ - (Qaraünlü, Qaraəhmədli)

QÜQY - (Qaraünlü, Qarayolçular)

19. QO. Qocalılar
20. QG. Qolgödəklər

MB. Məmməd budağı

21. M. Məşədilər
22. ME. Məmməd evi
23. RE-F3. Rəfi evi
24. R. Rəfilər
25. ŞL. Şirvanlılar (Lahıclar)
26. BK. Başqa Kənd



***Yusif QAZIYEV,***
***Pedaqogika üzrə elmlər doktoru, Əməkdar müəllim, Əmək veteranı AJB-nın üzvü, "Qızıl Qələm" laureatlı jurnalist-publisist, Prezident təqaüdlü, müstəqil tədqiqatçı***